# #Xalqüçün təbliğat-təşviqat kampaniyası uğurla davam edir

## YAP Səbail rayon təşkilatında qadın seçicilərlə görüş





Görüşü giriş sözü ilə açan YAP Səbail rayon təşkilatının aparat rəhbəri Zəfər Bayramov rayonun ictimai-siyasi həyatında yaxından iştirak edən qadınların fəallığından söz açaraq bildirdi ki, onlar zərif cinsin nümayəndələri olsalar da, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak etməklə, dövlətçiliyimizin möhkəmləndirilməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlər göstərirlər:

-Ölkəmizdəki siyasi proseslərdə fəal iştirak edən qadınlara ən böyük örnək Birinci vitse-prezident Mehriban xanım Əliyevanın misilsiz xidmətləridir. İnanıram ki, YAP-ın Səbail rayon təşkilatından bələdiyyə üzvlüyünə namizədliyi irəli sürülən qadınlar xalqa xidmət nümunəsi olan bu vətəndaşlıq mövqeyindən nümunə götürəcəklər.

Bakı Slavyan Universitetinin prorektoru, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, professor Sahibə Qafarova bildirdi ki, Azərbaycan qadınları bu gün cəmiyyətin ictimai-siyasi həyatının bütün sahələrində çox fəaldırlar, say etibarilə də ciddi elektorat təşkil edirlər. Bələdiyyə seçkilərində namizədlərin sırasında qadınların xüsusi çəkisinin ildən-ilə yüksəldiyini xüsusi qeyd edən deputat diqqətə çatdırdı ki, ölkəmizdə qadın siyasəti uğurla həyata keçirilir, qadınlar respublikada, eləcə də Səbail rayonunda gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə yaxından iştirak edirlər.

YAP Səbail rayon təşkilatı Qadınlar Şurasının sədri, dosent Təranə Kərimova ölkə başçısı, YAP-ın Sədri cənab İlham Əliyevin məharətli idarəçiliyi ilə cəmiyyət həyatının bütün sahələrində qazanılan uğurlardan bəhs etdi. Qeyd olundu ki, qadınlar ölkəmizin siyasi-iqtisadi inkişafında fəallıq göstərməklə, Azərbaycanı beynəlxalq aləmdə də layiqincə təmsil edirlər. T.Kərimova əminliklə bildirdi ki, ölkəmizdəki sabitlik və inkişafın davamlı olması üçün qadın seçicilər bələdiyyə seçkilərində də qaliblər, qələbələr partiyası olan Yeni Azərbaycan Partiyasının namizədlərinə eimad göstərəcəklər.

"Azərbaycan xanımı tarixən hər zaman həm cəmiyyətdə, həm cəbhədə, həm siyasət meydanında avanqard qüvvə kimi öndə addımlayıb" söyləyən YAP Səbail rayon təşkilatının sədr müavini, YAP Mərkəzi Seçki Qərargahının Səbail rayon şöbəsinin üzvü Mehman İsmayılov Vətənimizin, dövlətimizin çiçəklənməsi naminə Azərbaycan qadınına bütün istiqamətlərdəki fəaliyyətində uğurlar arzuladı.

Görüşdə Səbail, Badamdar və Bibiheybət bələdiyyələrinə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş qadın namizədlərdən Sədaqət Həsənova, Xatirə Əliyeva, Nərgiz Ələkbərova və Xədicə Həsənova çıxış edərək görəcəkləri işlər haqqında seçicilərə ətraflı məlumat verməklə sualları cavablandırdılar.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***

## NİZAMİ RAYON GƏNCLƏRİNİN "XALQ ÜÇÜN" TƏŞVİQAT AKSİYASI






Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının şəhər və rayon şöbələri bələdiyyə seçkiləri ilə bağlı təbliğat-təşviqat kampaniyasını uğurla davam etdirirlər. Partiya tərəfindən namizədliyi irəli sürülmüş şəxslərin seçki kampaniyası çərçivəsində növbəti tədbir Nizami rayonunda baş tutub.

YAP Nizami rayon təşkilatının gəncləri insanların gediş-gəlişinin çoxluq təşkil etdiyi ərazilərdə "Xalq üçün" təşviqat aksiyası keçiriblər.

Gənclər seçki kampaniyası üçün YAP Mərkəzi Seçki Qərargahı tərəfindən hazırlanmış bukletləri insanlara paylayıblar. Eyni zamanda, gənclər Azərbaycanda əldə olunan uğurlar və perspektivə hesablanmış hədəflər haqqında ətraflı izahat işləri aparıblar.

Bukletlə tanış olan insanlar, seçicilər də öz səmimi münasibətləri ilə Yeni Azərbaycan Partiyasına olan etimadını və dəstəyini nümayiş etdiriblər.

Aksiyanın yekun nəticəsi olaraq bu fikir hasil olub ki, seçicilər 23 dekabr 2019-cu il tarixində Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklər.

## YAP BİNƏQƏDİ RAYON TƏŞKİLATINDA SEÇİCİLƏRLƏ NÖVBƏTİ GÖRÜŞ





Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında bələdiyyə seçkilərində namizədliyi irəli sürülmüş şəxslərin seçicilərlə növbəti görüşü keçirilib.

YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin sədri Ramiz Göyüşov ölkəmizdə bələdiyyələrin formalaşdırılması tarixindən bəhs edib. Bildirib ki, ulu öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bir çox qanunvericilik aktlarının qəbul edilməsi ilə yanaşı, bələdiyyə institutunun formalaşdırılması da dövlətçiliyimizin inkişafına verilmiş misilsiz töhfələrdən biridir.

Yeni Azərbaycan Partiyası tərəfindən bələdiyyə seçkilərində Biləcəri bələdiyyəsi üzrə namizədliyi irəli sürülən İlham Xəlilov, Cəmilə İsmayılova, Etibar Cabbarov, İlham Qayıbzadə, Xocasən bələdiyyəsi üzrə namizədliyi irəli sürülən Məhərrəm Əsgərov, Aynurə Məmmədova, Qartal Budaqlı və Abbas Rəhimov çıxış edərək seçki platformalarını seçicilərin diqqətinə çatdırıblar. Seçicilərin səsçoxluğu ilə qalib gələcəkləri təqdirdə göstərilən etimadı doğruldacaqlarını və vətəndaşların problemlərinin həllinə səylə çalışacaqlarını qeyd ediblər.

YAP Mərkəzi Seçki Qərargahının Binəqədi rayon şöbəsinin üzvü, Binəqədi Rayon İcra Hakimiyyəti yanında İctimai Şuranın sədri Aslan Mehdiyev çıxış edərək bələdiyyə sisteminin əhəmiyyətindən danışıb. Vurğulayıb ki, hər bir layiqli namizədin bələdiyyələrdə uğurla təmsil olunması, öz bilik və bacarığını, peşəkarlığını tam səfərbər edərək dövlətinə, xalqına ləyaqətlə xidmət etməsi olduqca vacibdir.

## ASTARADA YÜKSƏK SEÇKİ ƏHVAL-RUHİYYƏSİ MÜŞAHİDƏ OLUNUR






Yeni Azərbaycan Partiyası Mərkəzi Seçki Qərargahının Astara rayon şöbəsinin üzvləri bələdiyyə seçkiləri ilə əlaqədar rayonun Şiyəkəran kəndində seçicilərlə görüş keçiriblər.

YAP Astara rayon təşkilatının sədri Firudin Əhmədov seçicilər qarşısında çıxış edərək bildirib ki, alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyasının həyata keçirdiyi təbliğat-təşviqat kampaniyasında yüksək seçki əhval-ruhiyyəsi müşahidə olunmaqdadır. Görüşdə rayon ağsaqqallarından Gülağa Rzayev və Ələsgər Əliyev çıxış edərək YAP-ın əvvəlki seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də qalib gəlmək əzmində olduğunu vurğulayıblar. Bildiriblər ki, 23 dekabr bələdiyyə seçkiləri günü astaralılar Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklər.

Şiyəkəran kənd seçicilərindən Xalidə Dadaşova, Həcər Hüseynova, Yunis Qulamov və digərləri çıxış edərək Prezident İlham Əliyevin daim diqqət və qayğısını hiss etdiklərini, əvvəlki seçkilərdə olduğu kimi bələdiyyə seçkilərində də böyük fəallıq nümayiş etdirərək xalqımızın rifahı, ölkəmizin inkişafı naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə səs verəcəklərini bildiriblər.

Hazırladı: **Taleh Bağırov, *"İki sahil"***